# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN

# 2003-CÜ İL ÜÇÜN

# İLLİK HESABATI

## TƏŞKİLATİ İNKİŞAF

Mart ayının 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyətininin XX–ci növbədən kənar Qurultayı keçirilmişdir. Qurultayda Novruz Davud oğlu Aslanov Qızıl Aypara Cəmiyyəti-ın Prezidenti seçilmişdir.

Qurultayda Milli Cəmiyyətin yeni Nizamnaməsi qəbul olunmuşdur. Yeni Nizamnamə Beynəlxalq Federasiyanın və Beynəlxalq Qırmızı Xaç Komitəsinin Nizamnamələr üzrə Komissiyasında bəyənilmiş və digər Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinə nümunəvi sənəd kimi təqdim olunmuşdur.

5 sentyabr 2003-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılmasına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 186 s nömrəli sərəncamı işıq üzü görmüşdür.

Üzvlərin sayını artırmaq və yeni ilk təşkilatları yaratmaq məqsədilə 2003-cü il «Səyyar Fəaliyyət ili» elan edilmişdir. İl ərzində Cəmiyyətin Prezidenti Novruz Aslanov və Təşkilat İdarəsinin əməkdaşları 46 rayonda ezamiyyətdə olaraq, yerli icra hakimiyyətlərinin başçılarının iştirakı ilə iclaslar keçirmişlər.

2003-cü ildə QAC üzvlərinin sayı **36,833** nəfər artaraq **167,537** min nəfər təşkil etmişdir.

## YERLİ KOMİTƏLƏRİN İNKİŞAFI

2003–cü ilin iyun ayından Qızıl Aypara Cəmiyyəti İştiraklı İcmanın İnkişafı proqramı ilə Qızıl Aypara Cəmiyyəti komitələrinin gücləndirilməsi proqramı başlanmışdır. Həmin proqram çərçivəsində Sumqayıt, İsmayıllı, Şamaxı, Mingəçevir, Ucar, Zaqatala rayon komitələri əhatə edilmişdir. Adı çəkilən bütün 6 rayon komitələrinin mövcud texniki və insan resursları qiymətləndirilmişdir. Ucar rayon komitəsi öz vəsaiti hesabına komitə üçün yeni ofis tikdirmişdir. Zaqatala RK 4 otaqlı ofisini təmir etmişdir. Şamaxı, İsmayılı və Mingəçevir rayon komitələri yerli icra hakimiyyətlərindən yeni ofis yerləri əldə etmişlər.

Bütün rayon komitələri kompüter, kseroks, ofis mebeli və internet şəbəkəsi ilə təmin edilmişdir. Həmçinin, bütün rayon komitələri elektron telefon xətti ilə təmin olunmuşdurlar. Sumqayıt Reqional mərkəzi proyektor cihazı ilə təmin edilmişdir. Mingəçevir, İsmayıllı və Sumqayıt RK yeni nəqliyyat vasitələri ilə təmin edilmişdir.

6 rayonun yerli icra hakimiyyətləri strukturları ilə bu proqram üzrə işçi əlaqələri yaradılmış və İştiraklı İcmanın İnkişafı komandaları hər bir rayon komitəsinin təşəbbüs qrupları yaradılmışdır. Həmin komandaların tərkibinə RK sədri, RK gənclər üzrə koordinatoru, 2 nəfər könüllü, yerli icra hakimiyyətinin nümayəndəsi, rayon səhiyyə və təhsil şöbələrin rəhbərləri daxildir.

Rayon komitələri öz ərazilərində 1 və ya 2 icma seçib onlar arasında mövcud vəziyyəti öyrənmək məqsədilə sorğular keçirmişdir. Bütün seçilmiş icmalar ilə ilk görüşlər keçirilmişdir. Bu görüşlər zamanı icma üzvləri 7-9 arasında icma təşəbbüs qruplarının üzvlərini seçmiş, onlara rolları və öhdəlikləri haqqında məlumat verilmişdir.

## FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ

2003-cü ilin yanvar ayında Milli Cəmiyyətin işçi heyəti və könüllüləri üçün «Fövqəladə Hallar Siyasəti»nin müzakirəsi keçirilmişdir. Siyasət yanvar ayında Cəmiyyətin Rəyasət heyəti tərəfindən təsdiq edilmişdir.

«İmkanlılığın və İmkansızlığın Qiymətləndirilməsi» (İİQ) layihəsinin həyata keçirilməsinə dair Baş Qərargahda və 7 RM-ə 15 seminar-məşqələ keçirilmişdir. «İmkanlılığın və İmkansızlığın Qiymətləndirilməsi» layihəsinin sonunda «İİQ» nəticələri haqda 7 seminar keçirilmişdir.

«Fövqəladə Hallar Siyasəti» Milli Cəmiyyətin tərəfdaşlarına «İmkanlılığın və İmkansızlığın Qiymətləndirilməsi» məcmuəsi ilə birlikdə paylanılmışdı.

FHH proqramı çərçivəsində Sabirabad, Salyan və Neftçala rayonlarında güclü leysan yağışları nəticəsində baş vermiş daşqın bölgələrində malyariyaya və bağırsağ xəstəliklərinə qarşı xəbərdarlıq kampaniyaları keçirilmişdir.

7 Regional Mərkəzdə Mobil Könüllü Dəstələr «MKD» yaradılmışdır. Hər bir «MKD»-də12-18 nəfər üzv vardır. 2003-cü il ərzində bütün «MKD»-ə Axtarış mövzusunda seminar məşqələlər və İlk Yardım treyninqləri keçirilmiş, telekommunikasiya avadanlığı qurulmuş, RM-də telekommunikasiyadan düzgün istifadə etmək haqda 126 nəfər könüllünün iştirakı ilə treyninqlər keçirilmişdir.

İran İslam Respublikasının Təbriz şəhərində bütün «MKD»-lərin liderləri və treyninq məsələlərinə cavabdeh şəxslər Fövqəladə Hallar üzrə lider treyninqlərində iştirak ediblər. Həmin liderlər öz «MKD» üzvlərinə həmin mövzuda treyninqlər keçirmişlər.

«İmkanlılığın və İmkansızlığın Qiymətləndirilməsi» məcmuəsinə əsaslanaraq, Gəncə və Mingəçevir RM-nin «MKD»-i üçün (simulyasiya) təlim-məşqlər keçirilmişdir. Həmin təlim-məşqlərə RM-lərin əməkdaşları, yerli hökumət strukturlarından Mingəçevir Mülkü Müdafiə RM–nin əməkdaşları, yanğın söndürmə xidməti və icra hakimyyətindən məsul şəxslər iştirak etmişdir. Keçirilən təlim-məşqdən sonra hökumət strukturları tərəfindən keçirilən belə tədbirlərə Milli Cəmiyyətin «MKD»-i cəlb olunması qərara alınmışdır.

Bakı və Sumqayıt «MKD»-in 56 könüllüsünün iştirakı ilə yay mövsumundə suda boğulma, AİDS-ə qarşı və Qan donorluğuna dair xəbərdarlıq kampaniyaları keçirilmişdir.

Fövqəladə Hallar üzrə ambar sisteminin qurulması sahəsində 2003-cü il ərzində Mingəçevir, Gəncə, Lənkəran və Naxçıvanda ambarlar təmir olunmuşdur. Bakı RM-i isə Milli Cəmiyyətin mərkəzi ambarından istifadə edilməsi nəzərdə tutulub. Mingəçevir və Gəncə RM-lərinin ambarları Fövqəladə Hallar üçün nəzərdə tutulmuş minimum standart avadanlıqlarla təmin olunmuşdur.

## İLK YARDIM

Qızıl Aypara Cəmiyyəti «İlk Yardım» üzrə Avropa Sertifikatı əldə edərək Avropa standartlarına uyğun treyninqlər keçirmək üçün hüquq əldə etmişdir.

BP şirkətinin maliyyə dəstəyi ilə Mingəçevir Regional Mərkəzinin Yevlax rayonunun Nərimanabad kəndində icmaya əsaslanan «İlk Yardım» layihəsinin həyata keçirilməsi üçün hazırlıq işləri aparılmışdır.

«İlk Yardım» sektorunun koordinatoru hər 6 region mərkəzdən 2 könüllü dəvət edərək, onlara təlim dərsləri keçmiş, Zaqulba dəniz klubunda rayonlar arasında praktiki yarış təşkil etmişdir.

2003-cü ildə 13 sentyabr, Ümumdünya İlk Yardım gününə həsr edilmiş tədbir keçirilmişdir. «Elite» ticarət mərkəzində keçirilən tədbirdə 200-dən artıq könüllü və işçi iştirak etmişdir. Bir neçə yerli və xarici təşkilatların nümayəndələri tədbirə dəvət olunmuş və orada fəal iştirak etmişdir. Tədbir zamanı 10,000 «İlk Yardım»

bukletləri qonaqlara, «Elite» ticarət mərkəzinin əməkdaşlarına, piyadalara, taksi parkının sürücülərinə paylanılmışdır.

«İlk Yardım» vərdişlərini aşılamaq məqsədilə Sumqayıt şəhərinə Şamaxı və İsmayıllı Rayon Komitəsindən dəvət olunmuş 5 könüllü üçün 3 günlük treyninq keçirilmişdir.

Yerli komitələrinin inkişafı proqramı çərçivəsində Şamaxı, Zaqatala, İsmayıllı, Sumqayıt, Mingəçevir və Ucar rayon komitələrinin 30 könüllüsü üçün «İlk Yardım» üzrə treyninqlər keçirilmişdir.

Bütün Regional Mərkəzlərin Mobil Könüllü Dəstələri üçün «İlk Yardım» treyninqləri təşkil edilmiş, hər Regional Mərkəzdə «İlk Yardım» qrupları yaradılmışdır.

İl ərzində 1,684 dinləyiciyə üçün 592 treyninq keçirilmişdir. Onlardan 1,230 nəfəri əhali arasında könüllü dinləyici, 334 nəfəri isə məktəbli olmuşdur. BMT, Oxfam, Norveç Qaçqınlar Şurasının və Xəzər Dəniz Gəmiçiliyinin əməkdaşları üçün pullu treyninqlər təşkil olunmuşdur.

## TELEKOMMUNİKASİYA

2003-cü ildə Rabitə Nazirliyindən və Radio Tezliklər üzrə Dövlət Komissiyasından Qızıl Aypara Cəmiyyətinin rabitə fəaliyyətinə icazə lisenziyası alınmışdır.

Bakı baş ofisində baza Codan 9360 HF və Motorola GM-900 VHF radio stansiyaları quraşdırılmış, onların işi yoxlanılmışdır.

Bakı Botanika İnstitutu ilə institutun damında VHF Motorola GR-500 ötürücüsünü quraşdırmaq üçün icarə müqaviləsi imzalanmış və orada VHF ötürücü quraşdırılmışdır.

Ötürücü normal işləməkdədir (əhatə dairəsi 50 km-dir).

Sabirabad, Lənkəran və Mingəçevir Regional Mərkəzlərində baza Codan 9360 HF və Motorola GM-900 VHF radio stansiyası quraşdırılmış, 4 ədəd Motorola VHF Handset cihazı verilmişdir (Sabirabad – 2, Lənkəran və Mingəçevir – 1). HF r/st ilə Bakı ilə rabitə yoxlanmışdır. Codan 9,360 HF r/st-ləri vasitəsilə Bakı – Sabirabad – Lənkəran – Mingəçevir regionları arasında əlaqə təmin olunmuşdur. Həmçinin, Qızıl Aypara Cəmiyyətinin 4 maşınında VHF Motorola radio stansiyaları quraşdırılmışdır.

İl ərzində Mobil Könüllü Dəstələrin 126 üzvünə radio cihazlardan istifadə üzrə treyninqlər keçirilmişdir.

## SAĞLAMLIQ VƏ QAYĞI

Çadır şəhərciklərində həyata keçirilən «Sağlamlıq və qayğı» proqramının 24 işçisi fəaliyyətlərini davam etdirərək çadır düşərgələrində səhiyyə vəziyyəti barədə məlumat vermiş və əhali arasında maarifləndirmə işləri aparmışlar.

| Mövzunun adı | Cəlb olunanların sayı |
|---|---|
| Ailə planlaşdırması | 1,594 |
| Qidalanma | 2,454 |
| Şəxsi gigiyena və sanitariya | 3,834 |
| İnfeksion xəstəliklər (malyariya, vərəm) | 1,769 |
| İlk yardım | 421 |
| Diareya | 784 |
| İmmunizasiya | 1,097 |
| Cəmi | 11,953 |

Sağlamlıq və qayğı şöbəsinin işçiləri monitorinq və işçilərin problemlərilə tanış olmaq məqsədilə Sabirabad çadır düşərgələrində 8 səfər etmişlər.

Dərnəgül yataqxanalarında məskunlaşan məcburi köçkünlər arasında fəaliyyət göstərən və 8 nəfərdən ibarət sağlamlıq qrupu öz əraziləri ilə bərabər Suraxanı, Sabunçu, Nizami, Xətai, Yasamal və Binəqədi rayonlarında yerləşən yataqxanalarda müxtəlif mövzularda maarifləndirmə işi aparmışlar.

İl ərzində maarifləndirmə işinə 8,206 nəfər cəlb olunmuş, onların arasında 3,000 informasiya materialları paylanılmışdır.

Azərbaycanda təmənnasız qan donorluğun və qan köçürmə sisteminin bərpası və inkişafı üçün Norveç-MTİP-ın keçirdiyi İnkişaf Proqramı həyata keçirtmək məqsədilə Beynəlxalq Qızıl Xac və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Azərbaycan Qızıl Aypara Cəmiyyəti qan donorlarının cəlb edilməsi sahəsində əməkdaşlıq edirlər. Bu proqram çərçivəsində Federasiyanın nümayəndəsi Əminə Cabbarova və Qızıl Aypara Cəmiyyətinin işçisi Ülviyyə Hüseynova qan donorluq sisteminin təcrübəsini əldə etmək üçün mart ayında Norveçin Oslo şəhərinə ezam olunmuşdular.

Aprel ayında bu Proqramın həyata keçirmək məqsədilə Qızıl Aypara Cəmiyyəti və Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya institutunun arasında Anlaşma Memorandumu imzalanmışdır.

5 may tarixində Qızıl Aypara Cəmiyyəti qan vermə aksiyası təşkil etmişdir. Aksiyada 45 nəfər təmənnasız olaraq qan vermişlər.

Azərbaycanda təmənnasız qan donorluğunu təbliğ etmək məqsədilə 5 könüllüdən ibarət olan qrup yaradılmışdır. Onlara qan donorluğu haqqında seminar-məşğələ keçirilmişdir. Qan donorluğunun inkişafı üçün qan donorluğa aid 1,500 lifletlər hazırlanıb və çap olunmuşdur.

Aprel-may aylarında Sabirabad, Salyan və Neftçala rayonlarda güclü leysan yağışları nəticəsində zinə sularının qalxması nəticəsində malyariya və bağırsaq infeksiyalarının yayılması təhlükəsi gözlənilirdi. Qızıl Aypara Cəmiyyəti FHH və Sağlamlıq şöbəsinin işçiləri bir neçə dəfə adı çəkilən rayonlara baş çəkmiş, vəziyyətin qiymətləndirilməsini aparmışdır. İyulun15-16-da Sabirabad, Salyan və Neftçala rayonlarında malyariya və bağırsaq infeksiyaların yayılmasının qarşısını almaq məqsədilə xəbərdarlıq kampaniyası keçirilmişdi. 25 könullu əhali arasında 21,992 vərəqə və 997 plakat paylamışlar. Kampaniya zamanı Sabirabadda 14,489, Salyanda – 4,300 və Neftçalada - 8,220 ev əhatə edilmişdir. «Sərhədsiz Həkimlər» təşkilatı və Qızıl Aypara Cəmiyyətinin 20 könüllüsü tərəfindən Sabirabad rayonunda «Solfak»la 2,500 evin dərmanlamasının yekunlaşması ilə əlaqədar görüş keçirilmişdir.

12 iyul tarixində Zaqulba dəniz klubunda Qızıl Aypara Cəmiyyəti tərəfindən keçirilmiş kampaniya zamanı əhali arasında qan donorluğuna aid 400 buklet paylanılmışdır. Kampaniyada 150-dən çox könüllü iştirak etmişdir.

Bakı şəhərinin Fəvvarələr Meydanında 5 könüllü qan donorluğuna dair təbliğat aparılmış, 200 broşur paylamışlar

22 iyul tarixində Sağlamlıq şöbəsi 100 məcburi köçkün uşaqları üçün təşkil edilmiş yay düşərgədə olmuş, onlara şəxsi gigiyena qaydaları və bununla bağlı xəstəliklər barədə məlumat vermişlər.

Avqust ayının 17-də Nabran çimərliyində Qızıl Aypara Cəmiyyətinin FHH idarəsinin keçirtdiyi kampaniyada çimərlikdə olanlara qan donorluğu haqqında 200 broşur paylanılmışdır.

2003-cü ildə Norveç Qızıl Xaç Cəmiyyəti Azərbaycan Qızıl Aypara Cəmiyyətinin «Qan Donorluğunun İnkişafı» proqramına maliyyə yardımın ayrılmasına razılıq vermişdir. Bunula bağlı 29 avqust tarixində Norveç Qızıl Xaç Cəmiyyətinin qan donorluğu proqramının koordinatoru Tor Ole Berqan Bakıya səfər etmiş, Qızıl Aypara Cəmiyyətinin rəhbərliyi və işçilərilə görüşlər keçirmişdir.

Sentyabr, noyabr və dekabr aylarında Qızıl Aypara Cəmiyyətinin iştirakı ilə «Vital» özəl tibb mərkəzində xeyriyyə aksiyalaı keçirilmişdir. Bu aksiyada 14 nəfər imkansız və məcbüri köçkün uşaqlara və tələbələrə pulsuz tibbi müayinələr (ultrasəs, boğaz-burun, terapevt sünnət və s.) aparılmışdır.

«İİQ»ə əsasən, Sabirabad və Lənkəran Regional Mərkəzlərinin və Bakının Nizami, Sabunçu, Sabail, Yasamal, Suraxanı və Nərimanov Rayon Komitələrində səhiyyə ilə bağlı görüşlər keçirilmişdir. Bu görüşlərdə gələcək sağlamlıq proqramlarının keçirilməsi müzakirə olunmuşdur.

Dekabr ayının 5-də Dərnəgül yataqxanalarında fəaliyyət göstərən 8 sağlamlıq işçisi ilə görüş keçirilmiş onlarla əhali üçün hazırlanmış sorğu müzakirə edilmişdir.

Noyabr-dekabr aylarında əhali arasında maarifləndirmə işini gücləndirmək məqsədilə sağlamlıq sektorunun əməkdaşları «Qidalanma», «İmmunizasiya», «Bağırsaq infeksiyaları» mövzularında bukletlər hazırlamışlar.

Noyabrın 3-də Sabunçu rayonunda yerləşən Plan-İqdisadi texnikumunun tələbələri ilə HİV/AİDS və qan donorluğuna dair görüş keçirilmişdir. Görüşdə qan donorluğuna aid 150 buklet paylanılmışdır.

4 dekabrda Azərbaycan Respublikası Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda 5 dekabr, Beynəlxalq könüllülər gününə həsr olunmuş qan vermə aksiyası keçirilmişdir. Bu aksiyada İqdisadiyyat və Xəzər Universitetlərinin tələbələri, Qarabağ münaqişəsinin iştirakçıları, Qızıl Aypara Cəmiyyətinin rayon komitələrinin sədr və işçiləri qan vermişdir. Aksiyada iştirak edən 60 nəfərdən 18-i qan donoru olmuşdur. Ümumiyyətlə, il ərzində 3 qan vermə aksiyaları nəticəsində 96 nəfər qan donoru olmuşdur.

Dekabrın 22-də Beynəlxalq Federasiyanın işçisi Əminə Cabbarova ilə Sabirabad cənub C-1 və C- 2 düşərgələrində monitorinq aparılmışdır. Əhaliyə sağlamlıq proqramı haqqında sorğu paylanılmışdır.

Dekabrın 26-da Dərnəgüldə işləyən 8 sağlamlıq işçisi üçün Respublika Xəstəxanasının nəzdində yerləşən Resurs Mərkəzində Respublika Xəstəxanasınında Amerika Beynəlxalq Tibb Alyansı ilə əməkdaşlıq nəticəsində yaranan Tibb Bacıları Assosiasiyası tərəfindən «Ana südü və onun uşaq üçün vacibliyi» adlı seminar-məşğələ keçirilmişdir.

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN (BHH) VƏ FUNDAMENTAL PRİNSİPLƏRİN YAYIMI

Beynəlxalq Qırmızı Xaç Komitəsinin dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Humanitar Hüququn yayımı sektoru il ərzində öz fəaliyyətini davam etdirmiş, Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları müxtəlif seminar, treyninq, görüş, müsabiqələr və s. vasitəsilə yayımlamışdır. Regional mərkəzlərdə informasiya və yayım sahəsində 14 könüllü hazırlanmışdır:

Sektor tərəfindən müxtəlif yayım materialları hazırlanıb paylanılmışdır:

Aprel ayında Bakı, Mingəçevir, Lənkəran şəhərlərinin məktəblərində «Yaxınına kömək et!» adlı rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqədə iştirak etmiş, rəsmlərin arasında 1, 2 və 3-cü yerlərə layiq görülən rəsmlərin müəllifləri sertifikat və hədiyyələrlə mükafatlandırılmışlar, rəsmlərin sərgisi keçirilmişdir.

| Yayım materiallarının adı | Yayım materiallarının sayı |
|---|---|
| Qızıl Aypara Cəmiyyəti və QX/QA Hərəkatına dair broşur | 2,000 |
| Şevron | 500 |
| Cib təqvimləri | 3,000 |
| Stolüstü təqvimlər | 1,000 |
| | |

| Keçirilən fəaliyyətlər | Fəaliyyətlərin sayı | İştirakçıların sayı |
|---|---|---|
| Seminar/Treyninqlər | 30 | 530 |
| Görüşlər | 28 | 67 |
| Regionlara səfərlər | 9 | 30 |

## İNFORMASİYA

İnformasiya sahəsində Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri mütəmadi olaraq yerli KİV, informasiya agentlikləri və televiziya kanalları vasitəsilə işıqlandırılır.

Fevral ayında Qızıl Aypara Cəmiyyətinin həyata keçirdiyi fəaliyyətləri əks etdirən veb-sayt yaradılmışdır.

Mart ayının 12-də keçirilən XX Qurultay, 8 may - Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Günü, 13 sentyabr - «İlk Yardım günü», 1 dekabr - «Ümumdünya AİDS-lə mübarizə Günü», 5 dekabrın - «Beynəlxalq Könüllülər Günü» və digər fəaliyyətlər tam şəkildə yerli KİV-lə işıqlandırılmışdır.

«Komsomolskaya Pravda-Baku», «Həftə İçi», «Xalq Cəbhəsi», «Palitra», «İki Sahil», «Cümhuriyyət», «Vışka» və s. qəzetlərlə əməkdaşlıq davam etmiş, «AzərTac» və «Assa-İrada-AzerNews» informasiya agentlikləri ilə yaxın əməkdaşlıq qurulmuşdur. Cəmiyyətin həyata keçirdiyi fəaliyyətlər «Xalq», «Azərbaycan», «Bizim Əsr – Naş Vek», «Bakinski Raboçi», ingilis dilində nəşr olunan «The Herald» və «The Azeri Times» qəzetlərində işıqlandırılmışdır. Mərkəzi və regional qəzetlərdə 60 maqalə nəşr olunmuşdur. «Komsomolskaya Pravda – Baku» qəzetinin müxbirləri Lyudmila Qarayeva və Teymur Rzayev, «Həftə İçi» qəzetinin əməkdaşı Mirvari Əlimərdanova, «AzərTac» agentliyinin əməkdaşı Xatirə Zəfərova va s. ilə yaxın əməkdaşlıq qurulmuşdur. Belə ki, «Komsomolskaya Pravda – Baku» qəzetinin əməkdaşları Cəmiyyət tərəfindən məcburi köçkün

ailələrin uşaqları üçün təşkil edilmiş yay düşərgəsində iştirak etmiş, bu barəbə məqalə hazırlamışlar.
Qızıl Aypara Cəmiyyətinin keçirilən bütün fəaliyyətləri yerli televiziya kanalları vasitəsilə də işıqlandırılır. Yaxın əməkdaşlıq «ANS», «Space», «Lider», «ATV», «Mir» və Türkiyənin «STV» kanalı ilə qurulmuşdur. İl ərzində bu kanallarda 31 süjet və veriliş nümayiş etdirilmişdir.

Avqust ayında Qızıl Aypara Cəmiyyəti və «Lider» kanalı arasında imzalanmış 10-aylıq müqavilə əsasında Qızıl Aypara Cəmiyyətinin bütün proqramları üzrə fəaliyyətlər, eyni zamanda, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycanda göstərdiyi fəaliyyətlər avqust ayından etbirən ayda 4 dəfə şənbə günü «Qızıl Aypara işığında» adlı verilişdə işıqlandırılmışdır. Avqust-noyabr ayları ərzində 13 veriliş nümayiş etdirilmişdir. Bu əməkdaşlığın 2004-cü ildə də davam etdirilməsi nəzərdə tutulub.

İnformasiya və yayım şöbəsinin əməkdaşları regional mərkəzlərdə informasiya və yayım üzrə fəaliyyət göstərən könüllülər hazırlamışlar. Bakı, Sumqayıt, Mingəçevir, Lənkəran, Sabirabad, Gəncə və Naxçıvan MR Regional Mərkəzlərində 5 treyninq keçirilmiş, 14 könüllü təlimatlandırılmışdır.

Qızıl Aypara Cəmiyyətinin şöbələrinin işini yüngülləşdirmək və İnternetdən istifadə etmək məqsədilə Katiblikdə lokal şəbəkə yaradılmışdır. Eyni zamanda, Katibliklə tez və keyfiyyətli əlaqə saxlamaq üçün Sumqayıt, Lənkəran və Mingəçevir regional mərkəzləri ilə e-mail əlaqəsi yaradılmışdır. Bu da öz növbəsində regionlarda keçirilən fəaliyyətlər barədə daha da tez məlumat alınmasına imkan vermişdir.

İnformasiya şöbəsi tərəfindən müxtəlif çap materialları hazırlanmışdır:

| Çap materiallarının növü | Çap materiallarının sayı |
|---|---|
| «İllik Hesabat 2002» | 1,800 |
| «Mərhəmət» jurnalı 2001-2003 | 1,500 |
| Qovluq | 1,000 |
| Qələm | 4,000 |

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Cəmiyyətin beynəlxalq əlaqələri durmadan güclənməkdədir. Qızıl Aypara Cəmiyyətinin nümayəndələri müxtəlif beynəlxalq görüş və seminarlarda iştirak etmiş, Cəmiyyətin beynəlxalq arenada imicinin daha da yüksəlməsinə yardım etmişlər.

Qızıl Aypara Cəmiyyətinin nümayəndələri mart ayının 13-15-də Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Türkiyə Nümayəndəliyinin Bakı şəhərində təşkil etdiyi PPP (Layihə Planlaşdırma Prosesi) üzrə seminarda iştirak etmişlər. Cəmiyyətin nümayəndələri il ərzində İTECA-Caspian beynəlxalq şirkəti tərəfindən təşkil olunmuş müxtəlif sərgilərdə iştirak etmişlər. Bu Cəmiyyətin imicinin artması və həyata keçirilən fəaliyyətlərə yeni donorların cəlb edilməsinə müsbət təsir göstərmişdir.

Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Cəmiyyətin nümayəndələrinin bir sıra beynəxəlq görüş və konfraslarda iştirak etməsini təşkil etmişlər:

- «Axtarış Xidməti»nin rəhbəri Afət Mirzəzadə iyun ayının 7-8-də Kiyev şəhərində keçirilən «Dəyirmi Masa» görüşündə iştirak etmişdir;
- «Gəlir gətirmə proqramı» koordinatoru Dilbər İsgəndərova iyul ayının 1-5-də Fransanın Klinqental şəhərində keçirilən PPP üzrə seminarda iştirak etmişdir;
- Cəmiyyətin Prezidenti Novruzəli Aslanov və İcraçı Katibin müavini Bəylər Talıbov Azərbaycan Qızıl Aypara və Macarıstan Qızıl Xaç Cəmiyyətinin

əməkdaşlığını daha da gücləndirmək məqsədilə iyul ayının 15-dən 18-ə kimi Macarıstana səfər etmişlər;

- Qızıl Aypara Cəmiyyətinin HİV/AİDS koordinatoru Şaban Şayev və könüllü Mehman Əliyev İtaliyada keçirilən ECM (Avropa Əməkdaşlıq Görüşü)ndə iştirak etmişlər;

- İyul ayının 1-dən 5-nə kimi Cəmiyyətinin İcraçı Katibin müavini Bəylər Talıbov və Beynəlxalq Federasiyanın Azərbaycandakı nümayəndəliyinin proqram koordinatoru Sabirə Baratbayeva İspaniyanın Alikante şəhərində «Təşkilati inkişaf» üzrə keçirilən treyninqdə iştirak etmişlər;

- Avqust ayında qan donorluğu proqramı çərçivəsində Norveç Qızıl Xaç Cəmiyyətinin Qan Proqramının koordinatoru Tor Ole Berqan Qızıl Aypara Cəmiyyətinə səfər etmişdir;

- Sentyabr ayının 13-18-də «Gənclər və Könüllülər» şöbəsinin rəhbəri Xalidə İsgəndərova və HİV/AİDS koordinatoru Şaban Şayev Latviyanın Yurmala şəhərində keçirilən ERNA-nın «İllik Görüşü»ndə iştirak etmişlər;

- Yayım sektorunun rəhbəri Rəna Yusifova və «Gənclər və Könüllülər» şöbəsinin təlimatçısı Pərviz Nəzərov sentyabr ayının 16-18-də İran İslam Respublikasının Şiraz şəhərində keçirilən «Gənclər Koalisiyası Sülh və Dostluq Naminədir» adlı konfransda iştirak etmişlər;

- Noyabr ayının 16-23-də Yayım sektorunun rəhbəri Rəna Yusifova və Beynəlxalq Federasiyanın İnformasiya/hesabat üzrə işçisi Səbinə Məhbubi-İran Ankara şəhərində Federasiyanın Türkiyə Nümayəndəliyi tərəfindən təşkil olunmuş «Treynerlər üçün treyninq»də iştirak etmişlər;

- Noyabr ayının 30-dan dekabr ayının 6-na kimi Cenevrədə keçirilən Qızıl Xaç və Qızıl Ayparanın Nizamnaməli Görüşlərində Qızıl Aypara Cəmiyyətinin Prezident N.Aslanov, İcraçı Katib E.Rəhimov və İcraçı Katibin müavini B.Talıbovdan ibarət nümayəndə heyəti iştirak etmiş, Qızıl Xaç və Qızıl Ayparanın XXVIII Beynəlxalq konfransı, XIV Baş Assambleyası və Nümayəndələr Şurasında Azərbaycan Qızıl Aypara Cəmiyyətini təmsil etmişlər. Bu görüşlər əsasında Cəmiyyətin beynəlxalq əlaqələri genişlənmiş, digər Milli Cəmiyyətlər ilə münasibətlər daha da təkmilləşmişdir.

## GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

Gənclər və könüllülər Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün fəaliyyətlərinə cəlb olunublar. 2003-cü ilin sonuna olan məlumata əsasən, Qızıl Aypara Cəmiyyəti könüllülərinin sayı 14.500-ə çatmışdır.

Mart ayında Qızıl Aypara Cəmiyyətində Mərkəzi və Regional Gənc Könüllülər Şurası yaradılmışdır. İl ərzində bütün regionlarda Gənc Könüllülər şuralarının görüşləri keçirilmişdir. Qızıl Ayparanın gənclər fəaliyyətlərini özündə əks etdirən aylıq bülleteni işıq üzü görmüşdür.

1 iyun, Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə əlaqədar Sabirabad və Saatlı rayonlarında yerləşən 3 çadır şəhərciyində məskunlaşan uşaqlar üçün tədbir keçirilmişdir. Tədbirdə bilik, idman, gözəllik, musiqi və rəqs üzrə yarışlar təşkil olunmuşdur.

Şağan qəsəbəsində yerləşən 3 saylı əlil uşaq evində gənc könüllülər tərəfindən sosial fəaliyyətlər davam etdirilmişdir. İyun ayında əlil uşaqlar üçün 15 günlük yay istirahət düşərgəsi təşkil olunmuşdur. Düşərgədə Qızıl Ayparanın 16 könüllüsü və Norveç Qızıl Xaç Cəmiyyətinin Nedre Eyke yerli komitəsinin könüllüləri iştirak etmişlər. Onlar uşaqları şəhərə gəzintiyə, dəniz kənarı çimərliyə, kafelərə aparmış, onlarl üçün müxtəlif oyunlar və rəsm müsabiqələri təşkil etmişlər.

Sentyabr ayının 1-dən 10-na kimi «Bilik günü» münasibəti ilə Qızıl Aypara Cəmiyyətinin Regional Mərkəzlərində və Xətai, Nizami, Nərimanov, Binəqədi, Yasamal, Əzizbəyov, Kəlbəcər, Xocalı,

Sabirabad, Gəncə və Lənkəran Rayon Komitələrində 10 günlük tədbirlər keçirilmişdir. EXXON və Səudiyyə Ərəbistanı Krallığının nəzdində Ümumdünya Gənclər Assambleyasının dəstəyi ilə «Bilik günü» münasibətilə uşaqlara dərs vəsaitləri, çantalar və məktəbli paltarları paylanılmışdır.

## HİV/AİDS

HİV/AİDS proqramı çərçivəində fəaliyyətlər davam etdirilmişdir. Aprel-may aylarında 7 regional mərkəzinin gənc könüllüləri üçün yaşıdlar-yaşıdlara adlı treyninq keçirilmişdir. 4 gün davam edən treyninqdə 35 nəfər iştirak etmişdir.

Avqust ayında Pirşağa qəsəbəsində təşkil olunan yeniyetmələr üçün yay düşərgəsi və Nabran çimərliyində keçirilən xəbərdarlıq kampaniyası zamanı 200 nəfərdən artıq HİV/AİDS haqqında məlumat almışdır.

1 dekabr, Ümumdünya AİDS-lə mübarizə gününə xəsr olunmuş konsert və rəsm müsabiqəsi həyata keçirilmişdir. 2 dekabr tarixində Əzizbəyov rayonu ərazisində «AİDS-ə yox deyək!» şuarı ilə 100 nəfər insanın iştirakı ilə görüş keçirilmişdir. Görüşdə xəstəlik haqqında geniş məlumat (HİV-in ötürülmə yolları, ondan qorunma yolları) və statistik rəqəmlər iştirakçılara çatdırılmışdır.

Dekabr ayı ərzində 520 adam maarifləndirilmişdir. Eyni zamanda tədbirlərdə 1,890 ədəd buklet, 120 ədəd plakat, 7,780 ədəd prezervativ, 80 ədəd döş nişanı, 250 ədəd bant paylanılmışdır. Həmçinin, rayon komitələrinə istifadə etmək üçün 200 ədəd mayka paylanılmışdır. Ümumiyyətlə 4,000 nəfərdən artıq fəaliyyətldə iştirak etmişdir.

02-03 dekabr tarixində Qaradağ rayonunda 220 nəfərin iştirakı ilə AİDS mövzusunda debatlar keçirilmişdir.

9 dekabr tarixində İqtisadiyyat Universitetində AİDS-lə mübarizə gününə həsr olunmuş, tələbələr ilə görüş keçirilmişdir. Görüşdə 25 nəfər tələbə iştirak etmişdir.

1 dekabr, Ümumdünya AİDS-lə mübarizə günü münasibəti ilə 7 Regional Mərkəzdə və 26 rayon komitəsində müxtəlif növ fəaliyyətlər keçirilmişdir (yürüş, treyninq, görüş, kampaniya).

Həmyaşıddan – Həmyaşıda HİV/AİDS maarifləndirmə proqramı çərçivəsində 44 nəfər treyner hazırlanmış və 4,767 nəfər maariflənmişdir. Ramanada 34 saylı qapalı tipli dəri-zöhrəvi xəstəxanasında 821 nəfər maarifləndirilmişdir. 3,850 ədəd plakat, 4,500 buklet, 20,000 ədəd qoruyucu vasitə əhali arasında paylanılmışdır.

## MİQRASİYA

60 gənc və daha çox ehtiyacı olan məcburi köçkün uşaqlarına kompüter və ingilis dili ixtisasları üzrə kursdlar təşkil edilmişdir. Kursu qurtaran tələbələrə Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Federasiyasının təsdiq etdikləri sertifikatlar təqdim olunmuşdur.

200 məcburi köçkün uşağının yay aylarında istirahətlərini təmin etmək məqsədilə Zaqulba uşaq sanatoriyasında yay istirahət düşərgəsi təşkil olunmuşlur.

Qızıl Aypara Cəmiyyətinin yerli dövlət orqanları ilə əməkdaşlığını təmin etmək məqsədilə Lənkəran və İsmayıllı zonalarında Mobil Texniki Dəstələrinə (MTD) iş fəaliyyətinə dair 3 günlük İlk yardım və təhlükəsizlik qaydaları haqqında seminar-məşğələlər keçirilmiş, onların ilə müqavilələr

imzalanmış və MTD-nə lazım olacaq 2 ədəd UAZ markalı avtomaşın alınmışdır.
Qızıl Ayparanın Goranboy Rayon Komitəsi nəzdində fəaliyyət göstərən MTD Xanlar, Samux, Gədəbəy və Daşkəsən rayonlarında 235 zavallı ailələrin evlərində təmir işləri aparmışdır. Təmir işlərinə Cəmiyyətin160 könüllüsü cəlb olunmuşdur.

Gəncə şəhərində məskunlaşan məcburi köçkün uşaqlarına və uşaq evində 30-31 dekabr tarixində Yeni İl şənliyi keçirilərək 300 uşağa hədiyyələr verilmişdir.

## HUMANİTAR YARDIM

Müxtəlif fəlakətlrdən zərərçəkmiş əhaliyə aşağıdakı yardım göstərilmişdir:

- Bakı şəhərində ianə qutularından yığılmış pul vəsaiti hesabına 458 nəfərə ərzaqla yardım göstərilmişdir;
- Gəlir gətirmə proqramı hesabına Zaqatala rayon xəstəxanasına yataq dəstləri;
- Neftçala rayonunda daşqından zərər çəkmiş 91 ailəyə ərzaq və məişət ləvazimatları;
- Mərdəkan Uşaq evində 93 uşağa paltar və ayaqqabı paylanılmışdır;
- Qızıl Aypara Cəmiyyətinin 83 yerli komitəsi vasitəsilə 47,710 zavallı, tənha, ahıl-xəstə və yardıma daha çox ehtiyacı olan insana ərzaqla və digər yardımlar göstərilmişdir.

## AXTARIŞ XİDMƏTİ

Yanvar ayından etibarən Axtarış Xidməti müvafiq fəaliyyət planına uyğun olaraq öz işini davam etdirmişdir.

2003-cü ildə 121 iş açılmış, 172 iş bağlanmışdır.

Onlardan:

- Müsbət bağlanan işlərin sayı - 73 (əsasən miqrasiya ilə əlaqəli);
- Mənfi bağlanan işlərin sayı - 99 (onlardan bir çoxu II Dünya Müharibəsi ilə bağlıdır).

İl ərzində 7 Regional Mərkəzdə könüllülərə Axtarış Xidmətinin fəaliyyətinə dair ümümu tanışlıq seminarları keçirilmişdir. Bunun məqsədi gələcəklə könüllüləri Axtarış üzrə mütəxəssis hazırlamaqdır. Hər rayon komitəsində 1 könüllü Axtarış üçün ayrılmışdır. Beləliklə, 83 könüllü bu işə cəlb olunmuşdur.

Dövlət strukturları axtarşı ilə birgə əməkdaşlığ davam edərək, daha da operativ və efffektiv olmuşdur.

Digər illərlə müqayisədə, 2003-cü ildə Axtarış Xidmətinin fəaliyyətini işıqlandırmaq məqsədilə KİV-nə daha çox və ətraflı məlumat verilmiş, «Zerkalo», «Bakı fəhləsi», «Vışka» qəzetləri və «Space», «Lider» telekanalları ilə yaxın əməkdaşlıq aparılmışdır.

Könüllüləri Axtarış üzrə mütəxəssis hazırlamaq üçün tədris filminin çəkilişinə başlanılmışdır. Bu film eyni zamanda Axtarış xidməti işçilərinin professionallıq səviyyəsinin artırılması üçün də istifadə olunacaqdır.

# MALİYYƏ HESABATI

## GƏLİRLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2003-cü ildəki gəlirləri (proqram xərcləri üçün ayrıan maliyyə vəsaiti) 3,386.4 mln.manat təşkil etmişdir. Ötən illərdə olduğu kimi, alınan gəlirlərin çox hissəsi, 2,542.1 mln.manat və yaxud 75,1%-i xarici donorların maliyyə dəstəyindən ibarətdir. Həmin məbləğdən 1,984.5 mln.manat Beynəlxalq Federasiyanın, 50,3 mln.manat Beynəlxalq Qırmızı Xaç Komitəsinin, 507,3 mln.manat isə birbaşa xarici donorların payına düşür.

Yerli donorların, təşkilatların və ayrı-ayrı imkanlı şəxslərin vəsaitinin həcmi Cəmiyyətin ümumi gəlirlərinin 1,3%-ni təşkil edir və 2002-ci ilə nisbətən 30,0% artmışdır. Üzvlük haqqlarından yığılan vəsait 725,1 mln.manat olmuş və keçən il ilə müqayisədə 62,9% artmışdır.

Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Federasiyaya olan üzvlük haqqı üzrə borcunu ödəmək üçün Dövlət büdcəsindən 36,4 mln.manat ayrılmış və ödənilmişdir.

Gəlir gətirmə layihəsindən 28,5 mln.manat gəlir alınmış (0,8%) və 2002-ci ilə nisbətən 26,7% artmışdır. Sair gəlirlər 54,3 mln.manat (1,6%) təşkil etmişdir.

## XƏRCLƏR

2003-cü ildə olan xərclər 3,050.9 mln.manat təşkil etmişdir, bu da 2002-ci ilə nisbətən 1,460.2 mln.manat (91,7%) artmışdır (bu xarici donorlar tərəfindən proqramlar üzrə ayrılan vəsaitin artması ilə bağlıdır).

Proqramlar üzrə xərclər 2,235.3 mln.mant (73,3%) təşkil etmişdir, o cümlədən, Beynəlxalq Federasiya tərəfindən əlaqələndirilən proqramlar üzrə xərclər 1,984.5 mln.manat (65,0%), Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən əlaqələndirilən proqram üzrə 50,3 mln.manat (1,6%), birbaşa xarici donorlar tərəfindən maliyyələşdirilən layihələr üzrə isə 200,5 mln.manat (6,5%) təşkil etmişdir. Humanitar yardım şəklində zərərçəkənlərə və aztəminatlı insanlara 228,7 mln.manat həcmində maddi yardım göstərilmişdir.

Göstərilən xərclərlə yanaşı 2003-cü ildə 36,4 mln.manat (1,2%) Beynəlxalq Federasiyaya üzvlük haqqı ödənilmiş, 490,0 mln.manat (16,1%) təsərrüfat və 60,5 mln.manat (2,0%) sair xərclər olmuşdur. Sair xərclər əsasən Cəmiyyətin balansında olan maşın və avadanlıqların amortizasiya üzrə xərclərindən ibarət olmuşdur.

# Gəlirlər (mln.manat)




# Xərclər (mln.manat)



# BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATI

BQXK

Neytral və müstəqil bir təşkilat olan **Beynəlxalq Qırmızı Xaç Komitəsi** (BQXK) müstəsna humanitar səlahiyyəti müharibə və daxili iğtişaş qurbanlarının həyatını və ləyaqətini qorumaq, onlara yardım göstərməkdən ibarətdir. O, münaqişə vəziyyətində Hərəkat tərəfindən həyata keçirilən beynəlxalq yardım fəaliyyətini istiqamətləndirir və tənzimləyir. O, həmçinin, dünyəvi humanitar prinsipləri və humanitar hüququ təbliğ etmək və möhkəmləndirmək yolu ilə əzab-əziyyətlərin qarşısını almağa çalışır. BQXK 1863-cü ildə yaradılmışdır və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının banisidir.

**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası** (BQXQACF) dünyada ən böyük humanitar təşkilat kimi insanlara heç bir milli və ya irqi fərq qoymadan, dini mənsubiyyəti və ya siyasi əqidəsindən asılı olmayaraq yardım edir. Federasiyanın əsas məqsədi - yer kürəsində ən zavallı və ehtiyacı olan insanların vəziyyətini yaxşılaşdırmaqdır. 1919-cu ildə yaradılmış Beynəlxalq Federasiya özündə dünyanın 181 ölkəsinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərini birləşdirir. Federasiya təbii və texnogen fəlakət qurbanlarına, qaçqınlara beynəlxalq yardımı göndərir və koordinasiya edir, həmçinin, səhiyyənin təxirəsalınmaz problemlərinin həllində fəal iştirak edir. Humanitar yardımla yanaşı, Federasiya milli cəmiyyətlərin və onların vasitəsi ilə ayrı-ayrı vətəndaşların imkanlarının möhkəmlənməsi və inkişafı üçün iş aparır. Beynəlxalq arenada Federasiya ona daxil olan cəmiyyətlərin, üzvlərinin rəsmi təmsilçisi kimi çıxış edir. O, Milli Cəmiyyətlər arasında əməkdaşlığı inkişaf etdirir və onların təbii fəlakətlər, səhiyyə və sosial proqramlara hazırlıq sahəsində imkanlarını möhkəmləndirir.

**Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri** öz dövlət orqanlarına humanitar fəaliyyət sahəsində yardımçı rolunu oynayır və onları təbii fəlakətlər zamanı yardımın göstərilməsi, səhiyyə və sosial proqramlarda iştirak kimi bir sıra xidmət növləri ilə təmin edir. Hərbi əməliyyatlar zamanı Milli Cəmiyyətlər zərər çəkmiş mülki əhaliyə köməklik göstərir və ehtiyac olduqda onları tibbi xidmətlə təmin edir. Federasiyanın əsas qüvvəsini dünyanın demək olar ki, bütün ölkələrini əhatə edən milli cəmiyyətlərin unikal şəbəkəsi təşkil edir. Milli Cəmiyyətlər arasında olan mövcud əməkdaşlığın sayəsində Federasiya ehtiyacı olanlara köməklik göstərir. Bütövlükdə, Milli Cəmiyyətlər hər il 233 milyon insana yardım göstərən 105 milyon könüllü və 300 min əməkdaşı öz sıralarında birləşdirir.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının bütün tərkib hissələri öz fəaliyyətlərində Fundamental Prinsipləri rəhbər tutur: **humanizm, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllü xidmət, vahidlik və universallıq**. Bütün Qızıl Xaç və Qızıl Aypara Hərəkatının fəaliyyətinin bir məqsədi var: diskriminasiyasız bədbəxtliyə düçar olmuşlara köməklik göstərmək və bununla bütün dünyada sülhün bərqərar olmasını möhkəmləndirmək.

## PRİNSİPLƏR

### Humanizm

Ayrı-seçkilik etmədən döyüş meydanlarındakı yaralılara yardım zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli görkəmdə hər bir vəziyyətdə insan əzablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. O, insanın həyatı və sağlamlığı ilə yanaşı şəxsiyyətinə hörmət olmasını da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında möhkəm sülh və əməkdaşlıq, dostluq, qarşılıqlı anlaşma olması üçün çalışır.

### Qərəzsizlik

O, heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə və ya siyasi görüşü, və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

### Neytrallıq

Hamının ona olan inamını qorumaq məqsədilə düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və fəlsəfi mübahisələrdə bitərəf mövqe tutur.

### Müstəqillik

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Millir Cəmiyyətlər muxtarlıqlarını qoruyub saxlayırlar ki, bu da onlara Hərəkatın müddəaları ilə işləmək imkanı verir.

### Könüllü Xidmət

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

### Vahidlik

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz humanist işini ölkənin bütün ərazisində görməlidir.

### Universallıq

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı universal bir qürumdur ki, bu qürumda bütün Cəmiyyətlərin bərabər hüquqları var və onlar bir-birlərinə kömək etməyə borcludurlar.

**Fundamental Prinsiplər 1965-ci ildə Vyanada Qızıl Xaçın XX Beynəlxalq Konfransında bəyan edilmişdir. Hazırki baxılmış mətn Cenevrədə 1986 ildə Beynəlxalq Qızıl Xaçın XXV Konfransında qəbul olunmuş Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Nizamnaməsində əks olunmuşdur.**